# Gənclər Kitabxanasında Xalq şairi Bəxtiyar Vahabzadənin biblioqrafik icmal və elektron resurslar bazası yaradılıb

Bu il Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, dramaturq, ədəbiyyatşünas, pedaqoq və ictimai xadim, Dövlət mükafatları laureatı, akademik Bəxtiyar Vahabzadənin anadan olmasının 100 ili tamam olur. Azərbaycan Prezidenti İlham Əliyevin Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin keçirilməsinə dair imzaladığı sərəncamdan irəli gələn tədbirləri həyata keçirmək məqsədilə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında biblioqrafik icmal və elektron resurslar bazası yaradılıb.




Kitabxanadan bildirilib ki, təqdim olunan vəsaitdə bir sıra rəsmi sənədlərin tam mətni, şairin zəngin həyat və yaradıcılığı, layiq görüldüyü fəxri adlar haqqında məlumat, elm, mədəniyyət, ədəbiyyat, mətbuat sahəsinin nümayəndələrinin, ictimai-siyasi xadimlərin onun haqqında söylədikləri dəyərli fikirlər yer alır. Biblioqrafik icmalda şairin müəllifi olduğu və onun haqqında qələmə alınan kitablar, dövri mətbuat nümunələri sərgilənir. Kitabxana əməkdaşları tərəfindən hazırlanan materialda şairin müxtəlif illərdə 12 cilddə nəşr edilmiş "Seçilmiş əsərləri", "Axı dünya fırlanır", "Gülüstan poeması", "Ağ atlı oğlan", "Örtmə pəncərəni", "Türk dünyasının Bəxtiyarı", "Parlament fəsilləri və Bəxtiyar Vahabzadə", "Bəxtiyar Vahabzadə poeziyasının dili", "Bəxtiyar Vahabzadə pyeslərinin səhnə taleyi" kimi 50-yə yaxın kitabın biblioqrafik təsviri ilə yanaşı, qısa annotasiyası da verilib.

Azərbaycan.- 2025.- 20 iyun (№ 125).- S.15.